AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MÜQƏDDƏS ƏRAZİLƏRİ

Hörmətli redaksiya, mənim xəzinəm! Mənim 90 yaşım var, onun 73 ilini xalqımın fəxri olan pedaqoji mahadlın dövrləri arasında keçirmişəm. Ömrümü böyük xalqımın ən ümdə, müqəddəs mənəvi sərvəti olan folkloru toplanmasi, nəşri tədqiqi və təbliğinə həsr etmişəm. 67 il bu müqəddəs mənəvi sərvətin tükənməz dolğna xalqımın balalarına qıymətsiz, Respublika tərixində misli bu bulaklar için folklordan ilk dərsliyi də yazmışam. 45 illdir kitab balalarını dildən düşmür. 30 kitab, 200-dən artıq elmi məqalə. Respublikamıza 14 folklorçunun alim yetirmişəm. Haqqda Azərbaycanın bütün folklorçularına atimlarının ağzından və müəllifimizdən. Əziz, sevimli prezidentimiz 2018-ci ili Azərbaycan Respublikasının cümhuriyyət ili elan etməyimizdən. Mən xəstə-xəzə xalqımızın sevinili və tarixi bayramı olan cümhuriyyətin 100 illiyinə bir məqalə hazırlamışam.

Əziz dostum, xahiş edirəm bu yazımı məsanın üstündə çox qalmaz-

sın, çap elayin mən onu qalmış bir gözümlə qəzetdə görüm.

Sizi çox istəyən

Paşa QƏNDİYEV
filologiya elmləri doktoru,
professor.
Ömrəkdar olm xalqım!

M.F.Axundov adına respublika kitabxanasında doktorluq dissertasiyası üzərində işləyərkən, onun bir kitabı rast gəldim. "Mahnılar". Bakı, Novruz mətbəəsi. Şiftə belə idi: 1919/14. Kitabı vərəqləkdıdə diqqət mənı sarıdı, qeydlər qürdürdüm. Sonra kitabı tədqiqatçı üçün oxumaq üçün götürdüm. Oğlum, kitabın üstündə olan 1919-cu il tarixi çox maraq oyatdı. Onunçu mahnı kitabı, bu il Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür. Sizi kitab haqqında ətraflı düşünməyə vadar edən də məhz bu tarix idi.

Kitab "Mahnılar" adlanır, buradakı mahnıların hamısı xalq şeiri, daha dəqiq desək, saçq şeiri üstünlükdədir. Doğrudan də el mahnılarını sazsızdır. Bir də heç bir mahnının avvəlində, yaxud da tapşırmasında müəllifin adı yoxdur. Bəla təəssüfat doğuran bir məsələdir. Mahnıların müəllifləri, sonrakıların xalq şeiri kimi bəhrədən düzdü qoşduğu şeirlərdir. Burada xalq şeiri şəkildə gorxaq, qeyma, deyişmə bağlamalar vardır.

Kitabda adları bütün mahnılarda ümumi bir rəh hakimdir; vətənə, onun təbiətinə, doğma yurdu, ana dilinə məhəbbət. "Mahnılar" kitabı beş bəndden ibarət "Ön baş sözü" (müqəddimə, başlanğıc sözü) mənasını ver. P.67). Adı bir mahnı ilə başlayır. Çox ibrətamiz, ülvü və mənəvüsa mükəmməl bir mahnıdır.

Söyləyirlər Azərbaycan ölkəsi,
Ən dardüşən ən vətənimin gülşəkdir.
Bu cahıdşın ət uzərinin telləkdir.
Gorək sosi ürəklari oynada.
Aşıq bunu calaçəqdir ellərdə,
Çoban-çobay oxuyacaq çöllərdə,
Inandığım budur gəzo dillərdə,
Cağırəlar onu bağda, bağçada.
Mən bilirəm eşidəndə bu dili,
Çırpınacaq Azərbaycan bülbülü.
Dindirəcək də dilsiz-ağzı ciliz,
Açılacaq şirin söhbət ortada.
Gah orəlim, gah da fərsin dilində,
Gah onların, gah da nəsnin dilində,
Danışardı özgə nağıl dilində,
Öz dilini yaratmışdı dünyada.
Bundan böyük taza yollar açılar,
Ey şairlər, ey çiçək saçılar.
Özgə şivə, özgə sözdən qaçılar,
Daha bir da bir uymazıq hər yada.

Göründüyü kimi, mahnı xalq cümhuriyyətinin qanunlaşdırdığı Azərbaycan – doğma dilə həsr edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin ana dili barədə tədbirləri, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi el sənətkarlarını, qələm sahiblərini cuşa gətirib, çünki onlara doğma dilində danışmaq, oxumaq, yazmaq sadəcə bəxş olmurdular. "Mahnılar" kitabı göstərir ki, xalqın həyatında bəş veren tədbirlərdən onun mənəviyyatının zənginləşməsində böyük rol oynamışdır. Azadlığın tənnini dən xalq mahnılar, şeirlər vasitəsilə öz sevincini bruza verirdi. Bu mahnılarda ictimai mənzum, vətənpərvərlik, milli-mə, ədalət, el qeyrəti eşidmək və xüsusi hissləri güclüdür. Forması, üslubu da xalq, aşıq şeiri formasındadır: gorayş, qoşma, deyişmə-bağlama dili aydın, sadə, səcdir.

"Mahnılar" kitabında "Azərbaycan" adında gorayş üstündə bir mahnı da verilmişdir. Danışdığımız kitabın əsas qayəsini bu mahnı təşkil edir. Doqquz bəndden ibarət olan mahnıda bir bəndə də bütövlükdə Azərbaycanımızın müəyyən bir maddi və tabii sərvəti, varidatı tərif edilir. Elə bil müğənni alına saz götürüb varlığı qədər sevdiyi vətənin səyahətinə çıxır. Böyük yaşıdan başlayır. Vətən vəzə gəzir, gözəl təbiəti onu vəsnən ən böyük, sevimli sərvətlərinin tərifini gətirib çıxarır. El sənətkarının sevinci, dərd-çərəzləri, müsəqqillik duyğuları satılıdıla mahnıya salınmışdır. Sonuncu bəndə isə vətənin gələcəyi, onun bağlanmış dillər açılıb, indi bu dillə el sabahın cevridiyi doğma diyarı, onun bağlarını, çöllərini, dağlarını, sərvətlərini, sonuncu sevincini vəsf edir. Azadlıq, müstəqillik elin qələbəsi mayəsi yandırmışdır.

Azərbaycan, doğma yurd, sevimli vətən. O, tarixcə ilk dəfə istiqlal əldə etmişdir. Az bir zamanda Azərbaycanlı dillər açılıbdı olmuşdur. Azərbaycan elə bil yeridən dünyaya gəlmişdir. "Azərbaycan, Azərbaycan" İşə aynq mahnı, atalar sözü, əfərizm olub dillərdi dolaşır. Azərbaycan haqqında yeni-yeni mahnılar, şeirlər dünyaya gəlirdi. Elə kitabdakı mahnılar özləri göstərir ki, xalqın həyatında baş veren tobəddülat, dəyişiklik, inkişaf, azadlıq necə də sürətlə onun mənəviyyatında izlər buraxır və xalqın böyük arzularının dilləri ək-sədənə tapırdı. Azadlığın sorbəstliyi tapan xalq mahnı vasitəsilə öz sevincini bruzo verirdi.

Yer üzündə yoxdu tayın,
Gur-gur axdı sonın çayın.
Bol verirdi bütün bağın.
Azərbaycan, Azərbaycan.
Laçının var, tarlanın var,
Çoxlu şirin, palanın var,
Qoxun yoxdur, düşmənin var,
Azərbaycan, Azərbaycan.
Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələri şirin narlı,
Azərbaycan, Azərbaycan.
Sobralərin zümbülüdür,
İl məddən üstü güllüdür,
Bağçaların bülbülüdür,
Azərbaycan, Azərbaycan.

El sənətkarı bu böyük mahnının hər bir bəndində doğma Azərbaycanımızın var-dövləti barədə elə bil tablo çəkir, rəngarəng vətənimiz gözümüzün önündən kinolenti kimi keçir. Azadlığı, istiqlalı gətirən Azərbaycan Xalq Cümhuriyyətinin liderləri M.Ə.Rəsulzadənin respublika elan olunmasının ardıyı çıxışlarındakı kəlamlar xalqı, xalq sənətkarlarını ilhama gətirmişdir. "Hər millət müsəqil və bir ömrü-lüdür". "Qoy ilə qabil etdilən bir şeyiz qoyun qoyuyan saadət ola bilməz, çünki saadət, hörriyyət istiqlaldadır". "Mənim inanım millətlərin qabində bəşəriyyə olan əmək günəşi işıqlandırır". Kitabın əsas mahnıları xalqımızın əziz görkəmli qüdrətli insanlarının sözlərindən ilhama gələn sənətkarların ürək çırpınılarıdır. M.Ə.Rəsulzadə sürbəzdə son nəfəsinədə məhz öz doğa Azərbaycan" sözünü demiş və gözlərini əbədi yummuşdur.

Durna gəldi bulaqların,
Çonnat kimi yaşılaqların,
Cənnə-gənə oyanmaqdan,
Azərbaycan, Azərbaycan.
İpək, pambıq, yunun çoxdur,
Xırpa, bığlıq, dövlün çoxdur,
Hər şeyin var, neyin yoxdur,
Azərbaycan, Azərbaycan.
Ormanında maral böyüyür,
Çöllərində ceyran ürkür.
Göllərində qaşlar üzür,
Azərbaycan, Azərbaycan.
İlxında sən kişnəyir,
Naxırda bağan gülməyir,
Sürünə əmlik məlayiz,
Azərbaycan, Azərbaycan.

O zaman xalq cümhuriyyətinə həsr edilən mahnılar əbədiyə milyonların ürəkdən xəbər verməsi, bəlkilə, onların arayişa obədi hələ olunmuşdur. Nə qədər böyük bir səmimiyyət, neco də monalı bir duyğu. Elə bil bu, şair tərəfindən yaradılmış, yazılmış bir əsər deyil, xalqın özü tərəfindən qoşulan el mahnılarıdır.

Bəli, bu mahnılar – həm də sədə və tabii bir mahnı. Lakin bu sadəlik də, bu tabiilik də bir misilliklə qəsmət etmir. Bu, nun üçün gur çeşmələri xatırladan sədə və bülur kimi saf bir lazurdur, lik bəxşə bir əsə elə gəlir ki, bu sözləri dərsək də, yazmaq da cox asandır. Ancaq yalnız ilk baxışda odur belə görünür. Bu mürəkkəb, ən dərin hissilərin məhsulu olan bir yaradıcılıq zamanı yazna bilər.

Bu təsəvvür yanar ki, olbətə, bu mahnılar tək deyil. Xalq cümhuriyyəti haqqında xalq arasında o vaxt əsər Cabbarlının "Ölkəmin" rədifli qoşma üstündə oxuduğu mahnı cüvələnir. Həmin hissilər, bu hissilori sevinc, qeyrə və azəri "Ölkəmin" şeirini bəstəyir. "Ölkəmin" həm bəstəkar, həm də mənzum cəhətdən həmin mahnılarla sasləşir. Çox doğru və layiqdir ki, "Ölkəmin" 1919-cu ildə xalq cümhuriyyətinin sevimli qəzeti olan "Azərbaycan" qəzetində çap olunmuşdur. Mən daha təfərrüatsız vərmədan fikirlərimi qeyrə-bilmədimək üçün "Ölkəmin" şeirini bütünlüklə moqəlmə daxil edirəm.

Şiş uclan buludlarla dövrüşən,
Dağlarında bulaları var ölkəmin.
Göy otlardan çıxıb palüz gəyinən,
Tarlaları, düzləri var ölkəmin.
Verimli torpaqlı, geniş çöllari,
Çalışqan əlləri, ağ əlləri.
Böyük gəmiləri, domir yolları,
Keçidləri, rüləri var ölkəmin.
Göllərində ördəklər üzəndə,
Çöllərində maralları gəzərlər.
Güllərindən gəlinlər tac bəzərlər.
Çeyran gözlü qızları var ölkəmin.
Çoşqun Xəzər oynar avşalarında,
İşıq saçan neftü torpaqlarında,
Tarixlərin qızıl yarpaqlarında,
Dadlı-dadlı sözləri var ölkəmin.
Bundan sonra "Mahnılar" kitabında deyişmələr bəhsi gəlir. Deyişmə xalq – aşıq sənətinin bir növüdür. Taxminən iki formada ola bilər. Birinci odur ki, aşıqlar qabaq-qabağa durub deyişirlər. Bu deyişmə zamanı onlar çoxlu şeirlərdən istifadə edirlər. Çoxvəlcə öz şeirlərini, sonra da klassiklərin, məşhur sənətkarların şeirlərini oxuyarlar. Kim daha çox şeir bilir, özü də müxtəlif aşıq havalarında oxuyur. İkinci növ deyişmə sözü yaxşıdır. Sonuncular yeno iz-üzə durur, özləri, öz həyatları, dünya, əlem, yaşayış haqqında bildiklərini bürüzə verirlər. Bu növdə deyişmələr bizim məhəbbət dastanlarımızda çalmışdır. Biz belo dastanlarda islam mifologiyası, onun çalışları, tohsinə etdiyi hissilər haqqında sual-cavabları rast gəlirik. "Qurbani", "Xəstə Qasım", "Abbas və Gülgəz" və "Zərnigar" kimi dastanlarda belə deyişmələrdən istifadə edilmişdir. "Mahnılar" kitabında qeyd olunduğu kimi, bu deyişmələr Parlamenda gedir. Parlamanın üzvləri ədalə otururlar, Musavvəzlərin lideri Hüseynəl Cavid Rəsulzadə, sosialistlərin lideri isə Səmədağa Ağamalı oğludur. Onas deyişənlər liderlərdir. Qvvəlcədən M.Ə.Rəsulzadə başlayır. Onun dilindən verilən mahnı çox səciyyəvidir. Burada o, lideri olduğu Azərbaycan Xalq Cümhuriyyətini dünyaya yenicə gəlmiş oğlan uşağı adlandırır, onun anası isə müsəvvədir. Mahnını oğlu Əli ilə başlayır.

Ey məbuslari, siz xəbərdar olunuz,
Bu gördüyünüz Azərbaycan bizimdir.
O onun doğma anası.
Şirin dilli gözəl oğlan bizimdir.
Biz doğmuşuq, gözləyin kəsinlik,
Porvanə tək dörd yanında osmişik.
Görək neco rahat yatır bu çocuq.
Oyunmasınlar ayaqyatan, bu yaşı.
Mən sevmiram oğlum gözə çil-çırıq,
İpək geyan, qızıl taxan bizimdir.
Ay ... bizimdir.

Musavvəzlərin dünyaya gəlirdiyi oğlan bəbəyə çox əqilli, gözəl bir varlıqdır. Şirin dilldir, müsavvəzlər ona layiq yalır, onun nələ bələkliyir porvanə tək onun dörd yanında osmişlər. Mahnıdakı bu sadə sözlər, mişə, qurulmuş cümhuriyyətə sonsuz məhəbbat var, camiyyəti onların uzun dövrlərdə arzuladığı vətəndə yaşıyır və yaşayır. Hətta mahnıda deyilir ki, dünyaya gəlmişsiz bu cümhuriyyətin Ulu Tanrısının toxunulmazlığını arzulayırlar. "Mahnılar" kitabının bu yerində sosialistlərin lideri tərəndən Ağamalı oğlu Əli adından deyişmə Ö, müsavvəzlərin cümhuriyyətinə həsad aparır, tokar əli ki, siz müstəqilliyə, istiqlala, hörriyyə nail olmusunuz, amma azadlığ yolunda müəzzəz aparacağıq. Ağamalı oğlunun mahnısında aşağıdakı kimi bəndlər vardır.

Çapın hala düzdü meydan sizindir,
Fəhlə, kəndli... bu bağırsan lirindir?
Yeyin-için, çünki dövran sizindir.
Sizə görülə bu ac qalan kimindir?
Günçinin qövvəti var, yeri yox.
Fəhlələrin çörəyi az, işi çox,
Burjuylərin yeri var, işi tox,
Bu sizindir..., o iki can kimindir?
Xan-xivədə qırmancanın dövrüləri,
Qoyun kimi qurd düşmiş ayrıları,
Öz evində başçı yero soyulan,
Hem-arxası al atılan kimindir?
Biz bilirik alan, satan sizsiniz,
Müfte veyh rahat yatan sizsiniz.
Indi bizlə Azərbaycan sizsiniz.
Soyan sizin... bəs soyulan kimindir?

Fabrikadan qovulan, hobsa alınan kimindir? Müsavvəzlər nəyin və yaşayışına həsar olunan bir mahnı verilmişdir.

(Davamı 11-ci səhifədə)

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MAHNILARI

(Əvvəli 8-ci səhifədə)

Gecə və gündüz işləməsinə baxmayaraq fəhlələr ac və yalavacdılar. Fəhlələr çalışır, vuruşur, əvəzində aclıq və səfalətlə qarşılaşır.

Çılpaq qalıb yenə yazıq fəhlələr,
Əyninə taxmağa kətan da yoxdur.
Nə yorğan var, nə döşək var, nə yastıq,
Altına salmağa kövşən də yoxdur.
Çörək yoxdur yeyə doyunca,
İsti bucaq buğ qısıla donunca,
Yaz açılıb uzun günlər doğunca,
Dadına bir yandan gələn də yoxdur.
Mümkünü yox neft alıban yandıra,
Məcbur olur gecələri kor qala,
Acından, soyuqdan ölmüş olursa,
Bürüb basdırmağa kəfən də yoxdur.
Hey çalışır beş-üç şaha artıra,
Bəlkə uşaqlara bir yol ət ala,
İgirmi beş deyir o qəssab Qara,
İgirmidən əskik kəsən də yoxdur.
Belə günün sonu nə vaxt olacaq,
Haçanacan fəhlə zəlil qalacaq,
Belə qəflət bizi bərkə salacaq,
Bu yolda bir tədbir edən də yoxdur.

"Mahnılar" kitabı bir möcüzədir, əsrlərin əks-sədasıdır. Burada yüz il bundan əqdəm doğma xalqımızın dimağından süzülən "Təbəddülat", "Azadlıq", "Bərabərlik", "İstiqlal", "Hüriyyət" kimi müqəddəs sevimli sözlər xalq şeiri örtüyünə bürüyərək nəsillərə bəxş edilmişdir. Üstünə 1919-cu il yazıldığına görə unudulmağa məcbur qalan bir kitabın qiyməti hazırda sevimli kitablarımızın siyahısında özünə layiqli yer qazanmaqdadır. Müsavat başçısı Məhəmməd Əminlə sosialistlərin lideri Ağamalı oğlunun parlamanda deyişmələri (deyişmə tapmaca):

Məhəmməd Əmin Rəsulzadə:
Hansı avdır dəstə-dəstə tutarlar,
Tutulduqca ölüm gölünə atarlar,
O nədir ki, bütün-bütün udarlar,
Udanlar salamat olur həmişə.
Ağamalı oğlu Səməd:
O fəhlədir dəstə-dəstə tuturlar,
Tutulduqca Petrovskə atarlar,
O milyondur, milyon-milyon udurlar,
Udanlar salamat olur həmişə.
Məhəmməd Əmin:
O nədir ki, adı vardır, özü yox,
O nədir ki, ağzı var, sözü yox,
O kimdir ki, işləməyə özü yox.
Allahdan qisməti gəlir həmişə.
Ağamalı oğlu:
Hüriyyətdir adı vardır, özü yox,
Kəndçi, fəhlə ağzı var, ay özü yox,
Xan-xivəndir işləməyə özü yox,
Kəndçidən qismətı gəlir həmişə.
Məhəmməd Əmin:
O kimdir ki, hər nə desən allanır,
O nədir ki, çox basdıqca azalır,
O kimdir ki, gəlib bizdən borc alır,
Aldığın sahibinə dolur həmişə.
Ağamalı oğlu:
Fəhlə-kəndli nə desəniz aldanır,
Bizim puldur çox basdıqca azalır,
İngilisdir gəlib bizdən borc alır,
Aldığın qarnına salır həmişə.
Məhəmməd Əmin:
Hansı çaydır axır-axır yox olur,
O kimdir ki, ayda bir yol tox olur,
Hansı şeydir bizim yerdə çox olur,
Vətənimizdə bir az qalır həmişə.
Ağamalı oğlu:
Qaçqınlara axan yoldur yox olur,
Biçarələr ayda bir yol tox olur,
O buğdadır bizim yerdə çox olur,
Xalqımız çörəksiz qalır həmişə.
Məhəmməd Əmin:
Nə vaxt bizim yanımız yer kəsər,
Millətimiz azad olub kef çəkər,
Yatanlar oyanar, ağlayan gülər,
Bu fikir başımı dəlir həmişə.
Ağamalı oğlu:
Hər biriniz bir nəzarət alsanız,
Hər yerdə bir qubernat salsanız,
Əhalinin qəndilləri yansanız,
Onlar asir-yesir olur həmişə.

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində böyük və şərəfli yer tutur. Mövcud olduğu az bir müddətdə xalq şüurunun milli, müstəqil mənliyinin oyanmasında onun müstəsna rolu olmuşdur. Vətən, ana dili, hüriyyət, istiqlal kimi sözləri xalqımız böyük sevinc və məhəbbətlə təkrar edərək Ana dili leksikonunda şərəfli yer vermişdir. Xalqımızın həmin dövrdə mənəviyyatının, bədii təfəkküründün məhsulu olmaq etibarilə bu kitabın böyük mədəni, bədii-estetik əhəmiyyəti vardır.

Paşa ƏFƏNDİYEV,
filologiya elmləri doktoru,
professor,
əməkdar elm xadimi
ev telefonu: 498-07-73